№ 1 (17) 2023

Solmaz Azay qızı Sadıqova
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

Zərxanım Habil qızı Məmmədova
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
Sənəd menecmenti kafedrasının magistrantı

# İRƏVAN TARİXİNƏ DAİR MÜASİR İNFORMASİYA XİDMƏTİNDƏ ELEKTRON MƏNBƏLƏRDƏN İSTİFADƏ SƏMƏRƏLİLİYİ

***Xülasə:*** *Sənəd kommunukasiyaları sistemində İrəvan xanlığı haqqında informasiya resurslarının kəmiyyət və keyfiyyət xarakteristikası ildən-ilə artır. Bu xüsusiyyət onun müasir dövrün aktual məsələsi kimi ayrıca tədqiqat obyekti olması ilə əlaqədardır. Məqalədə İrəvan xanlığına həsr olunmuş elektron resursun yaranması, müasir dövrdə informasiya texnologiyalarının yaratdığı imkanla əlaqədar sənəd axınında yeni meyli təcəssüm etdirilir. İrəvan xanlığına dair informasiya resurslarının kəmiyyət və keyfiyyət xarakteristikasının inkişaf dinamikasının tarixi mənzərəsi tərtib olunmuş cədvəllərdə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *İrəvan xanlığı, sənəd kommunikasiyaları, informasiya resursları, elektron resurslar, informasiya təminatı.*

Solmaz Sadiqova
Zarxanim Mammadova

## Effectiveness of using electronic resources the modern information service on the history of İrevan

***Summary:*** *The quantitative and qualitative characteristics of the information resources about the İrevan Khanate in the system of document communications are increasing year by year. This feature is related to the fact that it is a separate object of research as an actual issue of the modern era. In the article, the creation of the electronic resource dedicated to the Irevan khanate, the new trend in the flow of documents related to the opportunity created by information technology in the modern era is embodied. The historical picture of the development dynamics of the quantitative and qualitative characteristics of the information resources on the İrevan Khanate is reflected in the compiled tables.*

***Keywords:*** *Irevan Khanate, document communications, information resources, electronic resources, information provision.*





№ 1 (17) 2023

***Солмаз Садыгова***
***Зарханым Маммадова***

## Эффективность использования электронных ресурсов в современной информационной службе по истории Эривана

***Резюме:*** *Количественные и качественные характеристики информационных ресурсов о Эриванском ханстве в системе документальных коммуникаций с каждым годом возрастают. Эта особенность связана с тем, что она является отдельным объектом исследования как актуальная проблема современной эпохи. В статье воплощено создание электронного ресурса, посвященного Эриванскому ханству, новая тенденция в документообороте, связанная с возможностями, создаваемыми информационными технологиями в современную эпоху. Историческая картина динамики развития количественных и качественных характеристик информационных ресурсов по Эриванскому ханству отражена в составленных таблицах.*

***Ключевые слова:*** *Эриванское ханство, документальная связь, информационные ресурсы, электронные ресурсы, информационное обеспечение.*

***Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik.***
***Ümummilli lider Heydər Əliyev***

Cəmiyyətdə durmadan artan və yenilənən informasiya axını şəraitində tələbatçıların dəqiq və operativ informasiyaya olan tələbatlarını, maddi, mənəvi və intellektual sərvətlərdən beynəlxalq miqyasda birgə istifadə, informasiya mübadiləsinin az xərclə təmin edilməsi, informasiya xidmətlərinin təkmilləşdirilməsi və s. müasir tələblərə cavab verən Avtomatlaşdırılmış İnformasiya İdarəetmə Sistemlərinin yaradılmasını zəruri etmişdir. Ölkəmizdə kitabxana-biblioqrafiya və informasiya işlərinin beynəlxalq səviyyəyə uyğun olaraq həyata keçirilməsi üçün mövcud ilkin və ikinci dərəcəli resursları bazasının yaradılması mühüm əhəmiyyət kəsb edir [3, s.114; 117].

Tariximizi bilmək və dünyaya olduğu kimi təhrif olunmadan həqiqətləri çatdırmaq hər bir vətəndaşın mənəvi borcudur. İrəvan şəhəri də bizim əzəli və əbədi tarixi torpaqlarımızdır. Lakin ermənilərin saxtalaşdırdıqları və bir çox təhriflərə məruz qoyduqları mənbələrdə bu torpaqların onlara ulu əcdadlarından qaldıqları deyilir. İrəvan şəhəri ilə bağlı tarixi həqiqətləri üzə çıxarıb beynəlxalq miqyasda tanıtdırmaq üçün bir çox alimlərimiz, ziyalılarımız tarixi faktlara istinad edərək əsərlər, məqalələr, elektron mənbələr və s. hazırlamış və onları istər ölkə, istərsə də dünya miqyasında təbliğ etməkdədirlər. Bu barədə İrəvan şəhəri ilə bağlı həm ilkin, həm də ikinci dərəcəli mənbələr əhəmiyyətli rola malikdir. Hazırlanmış mənbələrin

elektronlaşdırılması daha çox oxucunun, tədqiqatçının bu vəsaitlərdən istifadə edərək həqiqətləri bilməsində xüsusi əhəmiyyət kəsb edir.

İrəvana dair ilkin və ya ikinci dərəcəli vəsaitləri əldə etməyin ilk ünvanı kimi İnternet resurslarında yerləşdirilən məqalələri nümunə göstərə bilərik. Əsaslı mənbələrə və faktlara istinad edilmədən yaradılmış İnternet resursları tarixi həqiqətlərin təhrif olunmasına səbəb olur. Lakin İnternet resurslarında faktlara söykənərək həqiqətləri nümayiş etdirən bir çox məlumat bazaları da mövcuddur. Nümunə olaraq aşağıdakı elektron resursları göstərmək olar:

*http://virtualkarabakh.az*
*http://mod.gov.az/az/irevan-tarixi-410/*
*http://az.m.wikipedia.org/wiki/%C4%B0r%C9%99van*
*http://science.gov.az/az/news/open/23371*

Tarixi keçmişimizi, bu günümüzə dair bir çox sənədləri qoruyub mühafizə edən və oxuculara daima istər onlayn, istərsə də ənənəvi xidmət göstərərək tələbatlarının ödənilməsində əhəmiyyətli rola malik olan, zəngin fonda sahib M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası İrəvana dair çıxmış bir çox ədəbiyyatın elektron formada rəqəmsallaşdırılmasını həyata keçirmiş və geniş oxcu kütləsinə təqdim etmişdir. Milli Kitabxananın elektron kataloqunda axtarış bölməsində "İrəvan" yazaraq axtarış apardığımız zaman formatına görə 258 kitab, 947 məqalə, 11 elektron resurs, 8 izonəşr, 2 səsyazma, 1 not nəşri, 1 audio kitab, 1 CD görə bilərik. Axtarışımızı illər üzrə apardıqda isə aşağıdakı cədvəldə göstərilən nəticəni almış oluruq [7]:

*Cədvəl 1.*

**M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının elektron kataloqunda "İrəvan" başlığı ilə axtarış aparılanda onilliklər şəklində çıxan ədəbiyyatın sayı**

| | *İllər üzrə ədəbiyyatın sayı* | *Ədəbiyyatların sayı* |
|---|---|---|
| 1. | 2020-20.. | 306 |
| 2. | 2010-2019 | 703 |
| 3. | 2000-2009 | 136 |
| 4. | 1900-1999 | 31 |
| 5. | 1970-1979 | 6 |
| 6. | 1960-1969 | 1 |
| 7. | 1930-1939 | 1 |
| 8. | 1920-1929 | 2 |
| 9. | 1910-1919 | 3 |
| 10. | 1900-1909 | 2 |
| 11. | 1890-1899 | 9 |





*Cədvəl 2.*

**2020-2023-cü illər üzrə ədəbiyyatın sayı**

Cədvəldən göründüyü kimi, 2020-2023-ci illərdə kitabxananın kataloqunda yer almış ədəbiyyatların bir qismi rəqəmsallaşdırılaraq elektron formada sayta geniş tələbatçı kütləsinin istifadəsi üçün yerləşdirilmişdir. Bu illərdə elektron istifadə üçün sayta yerləşdirilmiş ədəbiyyatın sayı belədir:

| | *İllər üzrə* | *Kitabların sayı* | *Məqalələrin sayı* | *Audio kitabların sayı* | *Ümumi say* |
|---|---|---|---|---|---|
| 1. | 2023 | | 35 | | 35 |
| 2. | 2022 | 13 | 110 | | 123 |
| 3. | 2021 | 12 | 36 | 1 | 49 |
| 4. | 2020 | 12 | 87 | | 99 |

*1. İrəvan Müəllimlər Seminariyasının məzunu [Mətn] / Z.Bayramova.- Səs. - 2023. - 18 yanvar. - S.12.*

*2. Alman tarixçisi: İrəvan xanlığı və ətrafı Azərbaycanın qərb torpağı olmuşdur [Mətn] / T.Aydınoğlu. - Xalq qəzeti. - 2023. - 18 yanvar. - S.10.*

*3. Qərbi Azərbaycan – qədim vətənə qayıdış! [Mətn]: İrəvan tarixi Azərbaycan diyarıdır / Z.Bayramova. - Səs. - 2023. - 16 fevral. - S.13.*

*4. İrəvan quberniyasının tarixi [Mətn]: (1850-1917-ci illər): [monoqrafiya] / Z.Əmrahov; elmi red. A.İsgəndərov; [tərtibat S.Kərimova; Azərb. Resp.-nın Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi; Gənc Musiqiçilərə Dəstək İctimai Birliyi]. - Bakı: Nurlar NPM, 2022. - 368 s.*

*5. The onomastics of the truth [Text]: Remaning and falsification of historical and geographical names in the territory of present Republic of Armenia / İ.Bayramov, N.Mustafa. - Baku: MaxOfset, 2022. - 456 p.*

*6. İrəvan əyalətinin kameral təsviri [Mətn]: [5 cilddə] (C.4.) / AMEA, A.A.Bakıxanov ad. Tarix İn-tu; tərc., tərtib, giriş mətni, qeyd və şərh. müəl. N.Əhmədli; layihə rəhbəri və elmi red. K.Şükürov; məsul red. İ.Məmmədova. - Bakı: Elm və təhsil, 2021. - 432 s. və b.*

Bu resursların nəşr yerinə görə qruplaşdırılmasında isə 1182-nin Azərbaycanda, 10-nun Rusiya Federasiyasında, 5-nin Gürcüstan Respublikasında, 2-nin Ermənistanda, 1-nin İtaliyada, 1-nin Moldovada, 1-nin Nyu Yorkda, 1-nin Türkiyədə çap olunduğunu görmüş olarıq [7].

İrəvan tarixinə dair bir çox ilkin mənbələr kimi ikinci dərəcəli mənbələr də mövcuddur. İkinci dərəcəli mənbələrdən ən önəmli yeri məhz Azərbaycan

Respublikası Prezdentinin İşlər İdarəsi Kitabxanası tərəfindən yaradılmış İrəvan tarixinə həsr edilmiş elektron məlumat bazası tutur.

"İrəvan şəhəri" elektron resursu haqqında məlumat verməzdən əvvəl məhz Nazim Mustafanın "İrəvan şəhəri" adlı kitabı haqqında qısaca məlumat vermək lazım gəlir, çünki elektron resurs bu kitab əsasında yaradılmışdır.

Kitabda Azərbaycanın qədim siyasi və mədəniyyət mərkəzlərindən bir olan İrəvan şəhərinin tarixi keçmişi, onun etnik tərkibi, memarlıq abidələri və onların aqibəti, sənətkarlıq nümunələri, İrəvan teatrı, mətbuatı, elm və mədəniyyət xadimləri haqqında ətraflı məlumat verilir. Kitabda İrəvan xanlığı əhalisinin etnik tərkibi faklara söykənən mənbələr əsasında araşdırılmış və erməni müəlliflərin xanlığın xristian əhalisi barədə uydurma fikirləri ifşa olunmuşdur. Həmçinin bu gün Ermənistan dövlətinin monoetik paytaxtına çevrilən İrəvan şəhərində XX əsrin əvvəllərindən etibarən azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən kütləvi qətliamlar, soyqırımları və etnik təmizləmə siyasəti haqqında sənədlərin dili ilə söhbət açılır. Burada əsas məqsəd Azərbaycanın ayrılmaz tarixi torpağı olan İrəvan şəhəri haqqında elmi ədəbiyyatda indiyə qədər mövcud olan saxta, uydurma fikirləri ifşa etmək, real elmi ictimaiyyətə və oxuculara olduğu kimi çatdırmaqdır [2, s.2].

Kitabda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda 17 noyabr 2015-ci il çıxışındanda bir hissə verilmişdir: "Ermənistanın bugünki paytaxtı XX əsrin əvvəlində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir. Bu gün bu şəhər tamamilə etnik təmizləməyə məruz qalmışdır" [2, s.3].

2013-cü ilin mayın 17-də Azərbaycan Respublikası Prezdentinin İşlər İdarəsi Kitabxanasında İrəvan tarixinə həsr edilmiş http://iravan.preslib.az veb-saytının təqdimatı keçirilmişdir. Tədbirdə "İrəvan şəhəri" elektron məlumat bazasının tarixi torpaqlarımızdan olan İrəvana dair saxtalaşdırılmamış sənədlər əsasında tədqiqinin əhəmiyyətindən bəhs edilmişdir.

Tədbirdə Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov veb-sayt haqqında məlumat verərək bildirmişdir ki, "*müasir dövrdə məlumat-informasiya mərkəzi rolunu oynayan kitabxanaların qarşısında qoyulan mühüm vəzifələrdən biri də Azərbaycanın tarixinə, dövlətçiliyinə və ölkəşünaslığa dair müxtəlif istiqamətlərdə elektron resursların hazırlanması məsələsidir. Prezident Kitabxanasında indiyədək bu sahədə xeyli iş görülmüş, "Odlar Yurdu Azərbaycan" adlı virtual elektron məlumat bazası və bir sıra elektron resurslar yaradılmışdır. Hər biri üç dildə - Azərbaycan, ingilis və rus dillərində hazırlanan bu elektron resurslar Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün sanballı baza hesab edilə bilər*" [1].

Nazim Mustafa bildirmişdir ki, veb-saytda materiallar 31 bölmədə qruplaşdırılmışdır. Hər bölmədəki yazılar tarixi gerçəklikləri əks etdirən fotoşəkillərlə müşayiət olunur [1].





"İrəvan şəhəri" adlı elektron resursda İrəvan haqqında keçmişdən günümüzə qədər olan məlumatları bir araya toplayaraq geniş oxucu kütləsi üçün çox önəmli bir mənbə rolunu oynamaqdadır. Bu elektron resursda İrəvanda azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin, abidələrinin erməni vəhşiləri tərəfindən yer üzündən necə silindiyi, başqa xalqlara məxsus tarixi-memarlıq abidəsi kimi necə qələmə verildiyi ayrı-ayrı tarixi faktlarla göstərilərək sübuta yetirilmişdir.

Elektron resursun "Ana səhifə" adlanan bölməsində İrəvan rəsmlərdə, İrəvan açıqcalarda hissələri verilmişdir.

"Müqəddimə" bölməsində İrəvan şəhərinin ümumi mənzərəsi, onun tarixi keçmişi, şəhər həyatı, maddi-mədəniyyət və memarlıq abidələri və bu günü haqqında ümumi məlumatlar öz əksini tapmışdır. Bu bölmədə göstərilmişdir ki, 1918-ci ildə Ermənistan dövləti yarananda Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İrəvan şəhərini paytax kimi ermənilərə güzəştə getmişdir və bundan sonra 1936-cı ildə Erivan adı dəyişdirilərək Yerevan adı ilə adlandırılmışdır [5].

"Tarixi arayış" bölməsində tarixi Azərbaycan torpaqlarına ermənilərin haradan, nə vaxt, necə gəldikləri haqqında məlumat verilmişdir. Bölmədə qeyd edilir ki, erməni vandalları Azərbaycanın tarixi torpaqlarına (indiki Ermənistan ərazisinə) kütləvi şəkildə İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra imzalanan Türkmənçay və Ədirnə müqavilələrinin şərtlərinə əsasən İran və Türkiyədən köçürülmüşdür. Bu bölmədə istifadə olunan ədəbiyyata nümunə olaraq, Əziz Ələkbərlinin "Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı (sənədlərin dili ilə)" əsərini, Nazim Axundovun "Azərbaycanda dövri mətbuat (1832-1920)" biblioqrafiyasını, İsrafil Məmmədovun "İrəvan dəftəri" əsərini və digər dəyərli tarixi mənbələri göstərə bilərik [5].

"Şəhərin tarixi" adlı bölmədə İrəvan şəhərinin yaranışından və bu günə qədər keçdiyi tarixi inkişaf yolundan, "Şəhərin əhalisi" bölməsində isə İrəvanda lap qədimlərdən işğal olunub erməni vandallarına verilib saxtalaşdırılmalara məruz qalana qədərki əksəriyyəti türk olan əhalisindən ətraflı, geniş şəkildə məlumatlar tarixi faktlara söykənərək əks olunmuşdur. Bölmələrdə istifadə olunan ədəbiyyatlara "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)" əsərini, İlham Rəhimlinin "İrəvan Dövlət Azərbaycan Dram Teatrı" əsərini, Əsgər Zeynalovun "İrəvan məktəbləri" əsərini, "Milli maarifçilik fədaisi Mirzə Həsən Rüşdiyyə" məqaləsini nümunə olaraq göstərməyimiz mümkündür [5].

"İrəvan xanlığı dövrü" bölməsi özü də bir sıra altbölmələrdən ibarətdir. Buraya "İnzibati ərazisi", "Xanlığın əhalisi", İdarəçilik sistemi", "Şəhərin süqutu" adlı bölmələr daxildir. Ümumilikdə bu bölmələrdə İrəvanın xanlıq dövründən bəhs edilmiş, xanlığın XVIII əsrin ortalarında tarixi Azərbaycan torpaqlarında yarandığı qeyd edilmişdir. Bölmədəki məlumatlarda da söz edildiyi kimi, İrəvan xanlığı Rusiya tərəfindən 1827-ci ildə işğal edilənə qədər inzibati-ərazi bölgüsü 15 mahaldan və xanlıqdan yarıasılı Şörəyel sultanlığından ibarət olmuşdur.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üzərindəki Türkmənçay kəndində imzalana müqavilə ilə İrəvan xanlığının Rusiyanın işğalı altına düşdüyü rəsmiləşdirildi. Bölmədə Əli Adıgözəlovun "Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən" məqaləsindən, Süleyman Məmmədovun "İrəvan şəhərində etnik çevrilişlər" məqaləsindən, "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı kitabdan və b. geni. istifadə olunmuşdur [5].

"Rusiya işğalı dövrü" adlanan bölmədə İrəvan xanlığının Rusiya işğalı altındakı tarixi inkişafından danışılır. Qeyd edilən məlumatlardan ən çox diqqəti cəlb edən isə işğaldan dərhal sonra İrəvanın adının dəyişdirilərək Erivanla əvəz edilməsidir. Lakin Rusiya işğalı dövründə olsa belə İrəvanın əzəli Azərbaycan torpağı olduğunu əsassız məlumatlara əsasən inkar edilə bilmədi [5].

Bölmələr içərisində ən çox diqqəti cəlb edən məlumatların toplandığı "İrəvanı idarə edənlər" bölməsini hesab etmək olar. Bu bölmə özü də bir sıra altbölmələrdən təşkil edilmişdir. Buraya "Ərəb xilafəti dörü", "Çuxursəd bəylərbəyləri", "İrəvan xanları", "İrəvan qubernatorları" bölmələrini daxil etmək olar. Bu bölmələrin hər birində İrəvanda hakimiyyəti idarə edən görkəmli şəxslərin adları sadalanaraq ətraflı məlumat verilmişdir [5].

"Etnik təmizləmə" bölməsinin altbölmələrinə "1905-1906-cı illər", "1918-1920-ci illər", "1948-1953-cü illər", "1988-1989-cu illər" daxil edilib. Ermənilərin XIX-XX əsrlərdə Azərbaycan türklərinə qarşı amansızcasına törətdikləri soyqırım və deportasiya aksiyalarına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət vermək məqsədilə 1998-ci ilin martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalanmış və bütün soyqırım faciələrini yad etmək məqsədilə martın 31-I Azərbaycanlıların soyqırımı günü kimi təyin edilmişdir. Bölmədəki ədəbiyyata nümunə kimi "Sovet Ermənistanında Azərbaycan kitabı (1925-1985) adlı biblioqrafiyanı, Cəlal Allahverdiyevin "İrəvan ədəbi mühiti" əsərini, "İrəvan əyalətinin icmal dəftəri"ni və s. göstərə bilərik [5].

Elektron resursun "Elm, təhsil, mədəniyyət" bölməsinin altbölmələri olan "Elm və təhsil", "Ədəbi mühit", "Mətbuat", "Teatr" hissələrində Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə mədəniyyət, incəsənət, din xadimlərinin adları çəkilərək onların fəaliyyətləri geniş şəkildə əks olunmuşdur. Mehman Süleymanovun "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" əsərini, M.Ordubadinin "Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixi)" əsərini, "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi" əsərini, Elçin Qarayevin "İrəvan xanlığı" əsərini, Fuad Əliyevlə Urfan Həsənovun "İrəvan xanlığı" məqaləsini və s. bu bölmə üçün istifadə olunmuş ədəbiyyatlar kimi nümunə çəkə bilərik [5].





Elektron resursda diqqəti çəkən bölmələrdən biri olan "Memarlıq və İncəsənət" adlı bölmədə "İrəvan qalası", "Xan sarayı", "Məscidlər", "Əmir Səəd məqbərəsi", "Sənətkarlıq və incəsənət" altbölmələri verilmişdir. Bu bölmədə tarixi Azərbaycan torpaqlarında mövcud olan çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri, memarlıq və incəsənət nümunələri haqqında və son iki əsrdə ermənilərin ciddi cəhdlə izlərini silməyə çalışdıqları maddi-mənəvi və memarlıq abidələrimizlə bağlı materiallar öz əksini tapmışdır. Bölmədə tarixi faktları sübuta yetirməkdən üçün tədqiqi aparılmış və istifadə olunmuş ədəbiyyatlara Kərim Kərimovun "İrəvan sərdarının sarayı" məqaləsini, Əsgər Zeynalovun "İrəvan ziyalıları" adlı kitabını, tərcüməçisi Ziyəddin Məhərrəmov olan "İrəvan tarixlərinin mətbuat abidəsi "Lək-lək" jurnalı"nı və b. nümunə çəkmək mümkündür [5].

Resursun "Ədəbiyyat" adlanan bölməsində "İrəvan şəhəri" electron məlumat bazasının yaradılmasında istifadə olunmuş müxtəlif dillərdə, daha çox Azərbaycan və rus dillərində olan 294 ədəbiyyat yer almışdır [5].

"Sənədlər" bölməsində isə istifadə olunmuş və tarixi faktları aydınlığı, dəqiqliyi ilə üzə çıxaran arxiv sənədləri göstərilmişdir [5].

"Layihə haqqında" bölməsindən əvvəl isə məhz "Tanınmış İrəvanlı ziyalılar" bölməsində bir sıra görkəmli şəxslər haqqında məlumatlar öz əksini tapmışdır. Bu şəxslərə nümunə olaraq, Abbas Məhəmmədzadəni, Cabbar Əsgərzadəni, Mirabbas Mirbağırovu, Rəşid bəy İsmayılovu, Nəriman bəy Nərimanbəyovu, Miryusif Mirbabayevi və s. göstərə bilərik [5].

"İrəvan şəhəri" elektron resursu qiymətli resurs hesab olunur, çünki tariximizi saxtalaşdırmağa çalışan erməni vandallarına qarşı tarixi faktlarla sübuta yetirilmiş həqiqətləri aşılamaqdadır. Həmçinin qeyd edə bilərik ki, bu elektron resurs Azərbaycan həqiqətlərinin üzə çıxarılmasında və tarixin qaranlıq səhifələrinin aşkarlanmasında çox faydalı rola malikdir.

İrəvan haqqında geniş tədqiqat apara biləcəyimiz digər bir mənbə isə "Azərbaycan Milli Ensiklopediyası"dırr. Bu ensiklopediya Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşri planlaşdırılmış çoxcildli ensiklopediyadır. 25 clddə olması nəzərdə tutulan bu ensiklopediyanın hal-hazırda 9 cildi çapdan çıxmışdır. "Azərbaycan Milli Ensiklopediyası"na nəzər saldıqda əksər cildlərində İrəvan haqqında məlumat əldə etmək mümkündür. Ensiklopediyanın IV cildində "Cəlladlı" başlığı ilə verilmişdir: "İrəvan xanlığının Dərəçiçək mahalında azərbaqycanlıların yaşadığı kənd, "İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) kənd haqqında məlumat var. 19-cu əsrin əvvəllərində bölgənin Rusiya tərəfindən işğalı zamanı kənd dağıdılmış, əhalisi isə Dərəçiçək kəndinə köçmüşdür" [6].

Ensiklopediyanın V cildində sə "Çinçir" başlığı altında "İrəvan quberniyasının Yeni Bəyazid qəzasında (31.12.1937-ci ildən Sevan r-nu) azərbaycanlıların yaşadığı kənd. 19-cu əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığına hücumu zamanı kənd dağıdılmış, əhalisi kənddən çıxarılmışdır.

1929-1930-cu illərdə kənddə Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. 26.04.1946-cı ildə kəndin adı dəyişdirilərək Varser qoyulmuşdur", "Dərcan" başlığı altında isə "İrəvan xanlığının Zəngibasar mahalında (31.12.1937-ci il Zəngibasar, 14.01.1969-cu ildən Masis r-nu), Zəngi çayının sağ sahilində azərbaycanlıların yaşadığı kənd. 1826-1828-ci illər Rusiya-İran müharibəsi nəticəsində kənd tamamilə dağıdılmışdır" məlumatlarında da İrəvanın tarixi torpağrımız olduğu sübuta yetirilir [6].

Nəticə etibarilə deyə bilərik ki, erməni vandalları xalqımıza məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə, öz adlarına çıxarmağa çalışsalar da tarixin yaddaşından həqiqətləri silmək mümkün deyildir. İrəvan şəhəri Azərbaycanın elm, təhsil, mədəniyyət və incənət mərkəzlərindən biri kimi tariximizdə mühüm yer tutur [2, s.12].

Hazırda kitabxana-informasiya və biblioqrafik ehtiyatlarını dünya informasiya sisteminə inteqrasiyasına malik olmaq kimi problemlər durur. Bu problemlərin həlli ilk növbədə Azərbaycan tarixi, mədəniyyəti, elmi, təhsili, incəsənəti, maddi və mənəvi dəyərləri haqqında informasiyanı yaymağa, erməni qəsbkarları tərəfindən yayılan yalan məlumatlarla tarixi torpaqlarımızın, mədəni və mənəvi sərvətlərimizin mənilməsilməsi hallarının, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına imkan verəcəkdir [4, S.280.]

*2020-ci il sentyabr ayının 27-də əks-hücum əməliyyatları ilə başlayan və noyabr ayının 10-da qələbə ilə başa çatan 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etdi* [8].

Xalq-iqtidar birliyi nəticəsində düşmənə ağır zərbələr vuruldu və Ermənistan Respublikası təslim olmağa məcbur oldu. Qüdrətli ordumuz tərəfindən Ermənistanın məğlub edilməsi ilə qələbənin təmin olunması Azərbaycan xalqının haqq səsi dünya ictimaiyyətinə çatdırılmış oldu. Eyni zamanda, əsrlər boyu davam edən erməni yalanları ifşa edildi.

## ƏDƏBİYYAT

1. *İrəvan şəhərinin tarixinə həsr edilmiş veb-saytın təqdimatı olmuşdur // Azərbaycan.-2013, 18 may.- S.5.*
2. *Mustafa N.Y. İrəvan şəhəri. - Bakı: "Red N Line" MMC, 2020.- 292 s.*
3. *Sadıqova S.A. Sosial-siyasi informasiya resursları: dərs vəsaiti. - Bakı: Mütərcim, 2016.- 126 s.*
4. *Sadıqova S.A.Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında. Monoqrafiya. - Bakı, ADPU nəşriyyatı, 2018, 305 s.*

***Elektron resurslar***

5. *http://iravan.preslib.az*
6. *http://ensiklopediya.gov.az/*
7. *http://ek.anl.az/search/query?term_1=%C4%B0r%C9%99van&theme=e-kataloq*
8. *https://moderator.az/.../demir-yumruq-xalq-iqtidar.../...*